Naxçıvan Muxtar Respublikası - 90

# Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətində Naxçıvan dövrü

**Muxtar respublikaya səfərləri zamanı tarixə nəzər salan Prezident İlham Əliyev ulu öndərin Naxçıvanda gördüyü işləri, Azərbaycanın müstəqilliyi naminə siyasi əhəmiyyətli xidmətlərini yüksək dəyərləndirir**

YAZI - 1

**Prezident İlham Əliyev Azərbaycanın ayrılmaz hissəsi, qədim tarixə malik Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzalamışdır. Sərəncamda qeyd olunduğu kimi çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin tarixində, sosial -iqtisadi, ictimai- siyasi həyatında əvəzsiz rol oynamışlar.**



Bu qədim diyarın yetirdiyi tarixi şəxsiyyətlərin, dövlət xadimlərinin, ədiblərin hər birinin həyatı, xidmətləri daim yüksək dəyərləndirilib. Azərbaycan xalqının xilaskarı adını qazanan, müstəqilliyimizin qarantı olan ümummilli lider Heydər Əliyevin adı xüsusilə qeyd olunmalıdır. Çünki 90 illik yubileyin 40 ilinə yaxın müddətdə muxtar respublikada əldə olunan nailiyyətlər Azərbaycana iki mərhələdə rəhbərlik edən ulu öndərin adı ilə bağlıdır.

Yubileylə bağlı silsilə yazılara ümummilli lider Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti ilə başlanması, tarixə xronoloji təhlil ədalətli olar.

"Azərbaycanın qədim, zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir. Naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq prosesləri gedir."

Canından artıq sevdiyi Azərbaycanın ayrılmaz parçası olan Naxçıvanla bağlı söylədiyi yüzlərlə müdrik kəlamlardan olan bu sözləri ilə doğma yurduna bağlılığını bildirən ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyində bildirirdi ki, Naxçıvan muxtariyyəti gərgin şəraitdə əldə edibdir: "Naxçıvana muxtariyyət vermək, Moskva, Qars müqavilələrində Naxçıvanın müqəddəratını o illərdə həll etmək asan məsələ deyildi. Amma o vaxt Azərbaycanın milli mənafeyini qoruyan adamlar bunu etdilər. Mən bunu tarixi nailiyyət hesab edirəm."

Ötən əsrin sonlarında ölkədə yaranan qarışıqlıqdan istifadə edərək mənfur niyyətlərini həyata keçirmək istəyən bəzi qüvvələrin Naxçıvanın muxtariyyətinin ləğvi ilə əlaqədar səsləndirdikləri sözləri milli mənafelərimizə zidd hərəkət adlandıran ulu öndər belə niyyətdə olanları ciddi tənqid edirdi. Bildirirdi ki, belə mənfur niyyətdə olanlar Azərbaycan xalqına düşmənçilik edirlər. Onlar Azərbaycanda hakimiyyətdə olmaq iddiasındadırlar. Əksinə 1924-cü ildə əldə edilmiş o nailiyyəti daha da möhkəmləndirmək, əbədi etmək üçün elmi əsərlər, kitablar yazılmalıdır: "İndi görürsünüz, tarixi nöqteyi-nəzərdən çox ağır, gərgin bir dövrdə Azərbaycan torpaqlarını qoruyub saxlamaq, Zəngəzur Ermənistana veriləndən sonra Naxçıvanı Azərbaycanın ayrılmaz bir hissəsi kimi saxlamaq üçün böyük nailiyyət əldə edilmiş, Naxçıvana muxtariyyət verilmişdir. Amma bu gün xalq, millət, dövlət qarşısında heç bir xidməti, heç bir səriştəsi olmayan cılız insanlar durub Naxçıvanın muxtariyyətinin əleyhinə çıxırlar. Hansı mənəvi haqla? Hansı hüquqla?"

Ümummilli lider Heydər Əliyevin liderlik fəlsəfəsinin təkrarolunmazlığının sübutu müasir Azərbaycanın beynəlxalq aləmdə qazandığı nüfuzu, siyasət və diplomatiya sahəsində əldə etdiyi misilsiz nailiyyətlərdir.

Tarixin zaman adlı hakiminin ədalətli hökmü insanlar kimi ölkələrin, dövlətlərin taleyində də söz sahibidir. 1969-cu ildə ilk dəfə hakimiyyətə gəlməklə Azərbaycanı şöhrətləndirən ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasətə qayıtmaqla müstəqilliyimizin əbədi qarantı kimi tarixə imza atdı.

Ulu öndər Heydər Əliyev canından artıq sevdiyi və həyatının məqsədi hesab etdiyi Azərbaycana bağlılığını 20 Yanvar hadisələri zamanı Moskvadakı Azərbaycan nümayəndəliyində ki tarixi çıxışı ilə bildirdi, dövlət xadimi olduğunu artıq qətiyyəti ilə təsdiqlədi. M. Qorbaçov kimi naşılara siyasət dərsi verdi. "Vətənini, torpağını, dövlətini, öz müstəqil Azərbaycanını qorumaq öz ata-anasını qorumaq deməkdir" hikmətini tarixi xidmətləri ilə sübuta yetirdi.

...1990-cı il iyul ayının 22-si bəlkə də salnaməmizə yazılan ən şanslı tarixlərdən biridir. Ata ocağına qayıdandan sonra həmyerliləri ilə görüşlərində, Azadlıq meydanında təşkil olunan 100 mindən artıq heydərsevərlərin iştirak etdiyi mitinqdə Azərbaycanın ayrılmaz bir parçası və Şərqə açılan qapısı olan Naxçıvanı qorumağın ölkə müstəqilliyinin təminatı üçün başlıca şərt olduğunu aydın və uzaqgörən siyasəti ilə dərk edən ulu öndər xalqının müstəqillik arzularının gerçəkləşəcəyinə inanırdı. İngilis şairi və tənqidçisi Samuel Conson bildirirdi ki, gələcəyi satın ala biləcək tək şey bu gündür. Bu baxımdan vaxtdan səmərəli, yerində, zamanında və məqsədyönlü istifadəyə diqqətlə yanaşan Heydər Əliyevin zəkasına, təcrübəsinə həsəd aparanlar çox idi. Nahaq deyilməyib ki, görəcəyi iş üçün vaxtdan səmərəli istifadə etməklə gələcək uğurların təməlini qoyan Heydər Əliyevin uzaqgörən siyasəti qarşıdakı bir neçə on illər üçün də hesablanıb.

Dünyada siyasi, iqtisadi qüdrəti ilə seçilən Azərbaycanı bu gün beynəlxalq aləmdə bir dövlət kimi tanıdan uğurların təməli də ulu öndərin Naxçıvanda çalışdığı illərdə qoyulub.

1990-cı ilin sentyabr seçkilərində Heydər Əliyevi Azərbaycan və Naxçıvan parlamentlərinə deputat seçməklə xalq illərdən bəri tapdalanan mənafeyini və taleyini yenidən müdrik siyasətçiyə etibar etdi. Bir ağsaqqal kimi onun sədrliyi ilə keçirilən sessiyalarda müzakirəyə çıxarılan məsələlərin əsl mahiyyəti və əhəmiyyəti həmin vaxtlarda o qədər başa düşülməsə də, sonralar bu tarixi anların müstəqilliyin əbədiliyinə istiqamətləndiyini bu gün hər kəs təsdiqləyir.

17 noyabr 1990- cı ildə keçirilən iclasa deputat kimi sədrlik edən Heydər Əliyev bir müddət sonra söylədiyi "Müstəqillik qədər çətin yol yoxdur. Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" sözlərinin real həyatda həlli üçün imkan yaradan məsələlər barədə düşüncələrini gerçəkləşdirdi. Həmin sessiyada "Naxçıvan MSSR"-in adının dəyişdirilməsi, dövlət atributları sayılan Azərbaycan Respublikası Cümhuriyyətinin üçrəngli bayrağının, himn və gerbinin bərpası barədə qərar qəbul olundu.

1990-cı ildə Bakıda törədilmiş 20 Yanvar hadisələrinə həsr olunmuş, Ali Sovetin yarımçıq dayandırılmış sessiyasını qətiyyətlə pisləyərək Naxçıvan MR Ali Məclisinin sessiyasında bu məsələnin müzakirəsini aktuallaşdırmaqla xalqımıza qarşı törədilən təcavüzə siyasi qiymət verdi.

...3 sentyabr 1991-ci ildə Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında deputatların təkidi, parlament binası önündə toplaşan xalqın tələbi ilə muxtar respublika Ali Məclisinin sədri seçilən Heydər Əliyevin siyasi fəaliyyətinin yeni mərhələsi başlandı. Əslində yalnız Naxçıvanın deyil, Azərbaycan tarixində özünəməxsus yeri olan bu sessiya Heydər Əliyev dühasının parlaq təsdiqi, onun hakimiyyət olimpinə yenidən yüksəlişinin başlanğıcı olmuşdur.

Buna görə də el ağsaqqalı, sonra deputat, nəhayət, Naxçıvan MR Ali Məclisin sədri kimi ən vacib problemlərin əsl mahiyyətini müdrikcəsinə dərk edir, çıxış yollarını müəyyənləşdirir, alternativ yollar axtarırdı.

Onun həyata keçirdiyi islahatlar haqqında geniş danışmağa ehtiyac olmasa da, o illərdə baş verən hadisələrin xronikası barədə qısa məlumat belə müdrik insanın xidmətləri barədə aydın təsəvvür yaradır.

Fəaliyyətinin Naxçıvan dövrünü əhatə edən illərdə ən böyük xidmətlərindən biri, diaspora fəaliyyətinin təməlini qoyan 31 dekabr- Dünya Azərbaycan türklərinin milli həmrəylik və birliyi barədə qərarın qəbulu idi.

Keçmiş SSRİ-nin cənub sərhədlərini qoruyan sovet ordusunun hərbi arsenalı, silah-sursatı muxtar respublikada qalmaqla bütün ordu hissələrinin Naxçıvandan çıxarılmasına nail oldu. Məhz o illərdə yaradılan Naxçıvanın inkişafı və müdafiəsi fonduna yığılan vəsait Milli Ordunun möhkəmlənməsinə sərf olundu. İlk sərhəd dəstəsinin formalaşdırılması da Naxçıvanda, ordu quruculuğuna böyük önəm verən ümummilli lider Heydər Əliyevin səyi ilə həyata keçirildi.

Naxçıvanda olarkən bütün Azərbaycan üçün gördüyü xidmətlərdən biri də respublikanın sərhədlərinin , Naxçıvanın ermənilər tərəfindən işğalının qarşısının alınmasına yönəldilmiş Qars müqaviləsinin təzələnməsi idi. Blokadada qalan naxçıvanlıların çətin vəziyyətdən çıxması üçün qonşu İran və Türkiyə ilə əməkdaşlıq gücləndi. Böyük şəxsiyyət olan Heydər Əliyevin nüfuzu bu sahədə də özünü doğrultdu. Ermənistan tərəfindən blokadaya alınan Naxçıvana hər iki qonşu dövlətdən ərzaq, sənaye malları, ən başlıcası isə enerji verildi. Türkiyə ilə qonşu dövlətlər arasında əlaqələrin möhkəmləndirilməsi üçün "Ümid" körpüsü salındı. Paytaxt Bakı ilə yeganə nəqliyyat yolunun intensiv fəaliyyəti üçün geniş imkanlara malik Naxçıvan hava limanı, Bakıda isə muxtar respublikanın nümayəndəliyi açıldı.

Bu gün geniş yayılan və ÜDM-də 85 faizdən artıq payı olan özəl bölmənin yaradılması üçün ilk addımlar da o illərdə atıldı. "Naxçıvanda zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaradılması", "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi" haqqında qərarlar qəbul etməklə sahibkarlıq üçün geniş imkanlar yaratdı.

Ən başlıcası isə Azərbaycanın ictimai-siyasi həyatında aparıcı rol oynayan, ölkənin gələcəyinə böyük ümidlər vəd edən, bu gün üzvlərinin sayı 600 mini ötən Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Təsis olunduğu gündən ətrafına yüz minlərlə insan toplandı. Prezident İlham Əliyevin qeyd etdiyi kimi Heydər Əliyevin Naxçıvandan Bakıya , böyük siyasətə qayıdışı şərefli xilaskar missiyasının başlanğıcı idi.

Ümummilli lider Heydər Əliyevin muxtar respublikadakı fəaliyyətini, xidmətlərini Azərbaycanın müstəqilliyinin qorunmasına yönəlmiş önəmli dövr adlandıran Prezident İlham Əliyevin bildirdiyi kimi ulu öndər Naxçıvana diqqətlə yanaşırdı: "Ona görə yox ki, burada anadan olmuşdu, bura onun Vətəni idi. Ona görə ki, siyasi xadim kimi Naxçıvanın Azərbaycan üçün əhəmiyyətini çox gözəl başa düşürdü."

2003-cü ildə xalqın təkidli tələbi ilə parçalanmaqda olan Azərbaycanı daxili qarşıdurma və xarici dövlətlərin məkrli müdaxilələrindən qorumaq üçün Bakıya dəvət olunan ümummilli lider Heydər Əliyev Azərbaycan üçün daha möhtəşəm uğurlara imza atdı.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***